DOI: https://doi.org/10.36719/2663-4619/93/23-28

**Könül Mikayılova**
Azərbaycan Respublikası Təhsil İnstitutu
konulmikayilova@rambler.ru
**Gülnarə Şahmuradova**
Azərbaycan Respublikası Təhsil İnstitutu
gulnara.shahmuradova@mail.ru
**Tavat Muradlı**
Azərbaycan Respublikası Təhsil İnstitutu
tavat.muradli2016@gmail.com

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN AİLƏ FƏLSƏFƏSİ

**Xülasə**

Məqalədə Azərbaycanda ailə dəyərləri və ailə prinsipləri, eləcə də Ümummilli lider Heydər Əliyevin ailə fəlsəfəsinə dair nümunələr öz əksini tapmışdır. Ümummilli liderin milli-mənəvi dəyərlər çərçivəsində ailə nümunəsi pedaqoji və psixoloji aspektdən təhlil olunmuşdur. Həmçinin Ümummilli liderin tam və natamam ailələrdə böyüyən uşaqların, sağlamlıq imkanları məhdud olan uşaqların, eləcə də valideyn himayəsindən məhrum olan uşaqların hüquq və təhlükəsizliklərini təmin etmək məqsədilə Azərbaycan qanunvericiliyindəki qərarları məqalədə yer almışdı. Uşaqların sağlamlığı ilə bağlı yaranacaq təhlükələrin qarşısının alınması məqsədilə Heydər Əliyev qohumluq əlaqələri üzərində ailələrin qurulmasına qarşı çıxırdı və qeyd edirdi ki, ölkə, xalq, cəmiyyət üçün sağlam və dayanıqlı ailələr formalaşmalıdır. Belə ailələr isə risq və təhlükələri nəzərə alaraq qurulmalıdır. Sevgi, *bütövlük, yekdillik, şərəflilik, inamlılıq, inanclılıq ailələrin təməl prinsipi olmalıdır.*

***Açar sözlər:*** *ailə fəlsəfəsi, prinsiplər, hüquq və vəzifələr, dəyərlər*

**Konul Mikayilova**
Institute of Science and Education of the Republic of Azerbaijan
konulmikayilova@rambler.ru
**Gulnara Shahmuradova**
Institute of Science and Education of the Republic of Azerbaijan
gulnara.shahmuradova@mail.ru
**Tavat Muradli**
Institute of Science and Education of the Republic of Azerbaijan
tavat.muradli2016@gmail.com

## Nationwide leader Heydar Aliyev's family philosophy

**Abstract**

The article reflects family values and family principles in Azerbaijan, as well as examples of the national leader Heydar Aliyev's family philosophy. Within the framework of the national-moral values of the national leader, the family example was analyzed from the pedagogical and psychological aspect. Also, the decisions of the national leader in the legislation of Azerbaijan in order to ensure the rights and safety of children growing up in complete and incomplete families, children with limited health opportunities, as well as children deprived of parental care were included in the article. In order to prevent threats to children's health, Heydar Aliyev opposed the establishment of families based on kinship ties and noted that healthy and stable families should be formed for the country, people, and society. Such families should be built considering risks and dangers. Love, integrity, unanimity, honor, trust, faith should be the basic principle of families.

***Keywords:*** *family philosophy, principles, rights and duties, values*

## Giriş

Azərbaycanda cəmiyyətin milli-mənəvi dəyərlərdən, adət-ənənələrdən ibarət "Ailə fəlsəfəsi" vardır. Ailə fəlsəfəsinin əsasını dayanıqlı ailə, dayanıqlı ailənin əsasını isə sağlam əqidəli, aydın təfəkkürlü vətəndaş-şəxsiyyət təşkil edir. Ailə fəlsəfəsi yoxdursa, deməli cəmiyyət üçün yararlı və faydalı vətəndaş da yoxdur.

Böyük və güclü dövlətin təməlini kiçik və dayanıqlı ailələr təşkil edir. *"Azərbaycan Respublikasının ailə məcəlləsi" haqqında qanunda ailə münasibətlərinin yaranması, möhkəmləndirilməsi prinsipləri, hüquq və vəzifələri öz əksini tapmışdır. Qanunda ailənin formalaşması, ailə daxili münasibətlərin tənzimlənməsi,* ər və arvadın hüquq bərabərliyi və s. qeyd olunmuşdur. Dayanıqlı ailənin təməli isə milli-mənəvi dəyərlər və adət-ənənələr üzərində qurulmalıdır. Bu ailənin maddi və mənəvi sərvəti hesab olunur. Ailə bütün maddi mənəvi sədləri aşmaq bacarığına və cəsarətinə malik iki şəxsin qurduğu kiçik bir dövlətdir ki, bu dövlət iki şəxs olaraq, ata və ana fenomenin üzərində qurulur. *Ailədə şərəflilik ailə üzvlərinin əxlaq, tərbiyyə prinsiplərini qoruması və sadiq qalmasıdır. Ailədə inam qarşılıqlı hörmət, şəffavlıq əsasında formalaşır. Ailədə inanclılıq nəsildən-nəslə ötrülən dini və mənəvi dəyərlərlərin toplusudur. Milli-mənəvi dəyərlər əsasında formalaşan inanclar ailənin dayanıqlı olmasına gətirib çıxarır* (1).

Kiçik dövlətdən böyük dövlətə ailə dəyərlərini daşıyan dahi şəxsiyyətlərin ailələrini, xüsusilə də Heydər Əliyevin ailə fəlsəfəsini nümünə göstərə bilərik. Heydər Əliyev daima həyat və fəaliyyətində mənsub olduğu milli və mənəvi dəyərləri, kimliyi əsas amal hesab edərək idarəçiliyi dövründə bunları təməl prinsipinə çevirmişdir (2).

**Ulu öndər Heydər Əliyevin ailə fəlsəfəsi.**

Azərbaycanda ailə psixologiyası ülvi və müqqəddəsdir. Çünki, şəxsiyyətin formalaşmasında ailə daxili münasibətlərin rolu yüksək qiymətləndirilir. Ailədə böyüyən şəxsiyyətin sosial mühitdəki yeri və rolu ailə təməlindən asılıdır. Bura valideyn-övlad arasında emosional münasibətlərin, valideynlərin mühafizəkarlığı və s. daxildir (3).

Ümummilli lider Heydər Əliyev daima ailə dəyərlərinə sadiq qalmışdır. Belə ki, uzun illər vətəndən kənarda yaşamasına baxmayaraq, doğma ana dilinin bütün çalarlarına bir dilçi qədər bələd olmuşdur. Ailə üzvlərinin doğma dildə və adət-ənənələrlə tərbiyə olunmasına xüsusi önəm verərək qeyd etmişdir: *"Ailə dəyərləri, ailə ənənələri, milli-mənəvi dəyərlərimizə sədaqət, uşaqların müasir səviyyədə tərbiyəsi mühüm əhəmiyyət kəsb edir"* (4).

Onun ailə başçısı olaraq həyat sirdaşı, xanımı Zərifə Əliyevaya olan münasibəti, hörmət və ehtiramı bu ailə dəyərlərinin bariz nümunəsidir.



Bu sevgi, bu ehtiram Vaqif Mustafayevin çəkdiyi "Sevgi Epoxası" filminin ana xəttini təşkil etmişdir. Ümummilli lider xanımı haqqında xatirələrini belə dilə gətirmişdir: *"... mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm və bu gün də bu yolda çalışıram. Bu yolda mənim həmişə səmərəli, müvəffəqiyyətlə çalışmağımda, hesab edirəm ki, ailə vəziyyətimin rolu böyük olub. Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam..."* (5).

Heydər Əliyevin ailə fəlsəfəsinin əsas prinsiplərini - ailədə sevgi*, bütövlük, yekdillik, şərəflilik, inamlılıq, inanclılıq təşkil edir. Ailənin başlıca sütunu sevgi, bütövlük və diqqətdir. Ümummilli lider dövlət başçısı olmasına baxmayaraq, heç bir ailə üzvü, övladları onun qayğı və diqqətindən, sevgisindən kənarda qalmamışdır. Onun nümunəvi ailə tabloları bunun bariz nümunəsidir. Biz bu ailə tablolarında xoşbəxt qadın, xoşbəxt övlad cizgilərini açıq aşkar görə bilirik.*

Bu prinsiplər əsasında hər iki şəxsiyyət cəmiyyət üçün iki dəyərli övlad yetişdirmişdir ki, bu gün də Azərbaycan xalqı onların istedadından yararlanır. Bu həm də onun ailə bütovlüyünün göstəricisidir. *Ailədə yekdillik hər hansı bir məsələ ətrafında müzakirə apararaq ortaq məxrəcə gəlməkdir. Biz bunu Heydər Əliyevin ailəsində də görə bilirik. Belə ki, ailəsində formalaşdırdığı sevgi və qayğı onun siyasi fəaliyyətində fikirlərinin ailə üzvləri tərəfindən yekdilliklə dəstəklənməsidir* (Hüseynova, 2004: 472).

Yalnız öz ailəsinə deyil, Azərbaycanın hər bir ailəsinin taleyinə biganə qalmayan Ulu öndər ailə adətlərimizin, dəyərlərimizin ləyaqətlə qorunması, nəsildən-nəslə ötürülməsi və şərəflə davam etdirilməsi istiqamətində xalqa hər zaman böyük qayğı və dəstək göstərmişdir. Azərbaycan ailələrinin qorunub saxlanmasını, inkişafını, bu ailələrdə yetişən uşaqları Azərbaycanın milli sərvəti hesab etmişdir (7).

Məhz buna görə də, Heydər Əliyev rəhbərliyi dövründə ailələrə - xüsusilə də çoxuşaqlı, sosial cəhətdən aztəminatlı, qazi və şəhid ailələrinə diqqət və qayğısını əsirgəməmişdir. Eyni zamanda, belə ailələrdən olan uşaqların təhsilinə göstərdiyi diqqət də bu qayğının bariz nümunəsidir. Heydər Əliyev belə hesab edirdi ki, bütün sahələrdə yaranan problemlərin həllində qarşılıqlı anlaşma və münasibət çıxış yolu olduğu kimi, ailədə də hər bir ailə üzvü mənsub olduğu xalqın özünəməxsus statusunu, milli-mənəvi dəyərlərini, qayda-qanunlarını, əlaqələrini və prinsiplərini gözləməyə borcludur. Buna görə də hər bir ailə üzvləri öhdəliklərini yerinə yetirməli, ailənin rifahı üçün birlikdə çalışmalı, bir-birlərinə hörmət və qayğı ilə yanaşmalı, sevinci və kədəri birgə bölüşməlidir.

Görkəmli dövlət və siyasi xadim Heydər Əliyevin bu istiqamıtdə həyata keçirdiyi uğurlu, məqsədyönlü siyasətdən biri də 2000-ci ildə təsdiqini tapan "Azərbaycan Respublikasının Ailə Məcəlləsi" ilə bağlı qanundur (8). Bu qanunda ailə üzvlərinin hüquq və vəzifələri, azadlıqları, ailə münasibətlərinin tənzimlənməsi ilə yanaşı, onların mülki hüquqları da müəyyən olunur.

Ümummilli lider Heydər Əliyev sağlam, dayanıqlı ailənin qurulması, qorunması istiqamətində bir sıra mühüm işlər həyata keçirir, ailələrin qarşılaşa biləcəyi problemlərin həllində yardımçı ola biləcək mərkəzlərin açılmasına, ailələrə xidmət və yardımçı olmalarına diqqət edirdi. Sağlam ailənin qurulmasına və hər bir yeni qurulan Azərbaycan ailəsində sağlam uşaqların doğulması, uşaqların ailədə qayğı və diqqətlə böyüməsi dahi şəxsiyyətin ailə fəlsəfəsinin əsas amillərindən olub. Ulu öndərimiz xüsusilə də sağlam nəslin yetişməsində mühüm diqqət yetirilməli olan məsələlərdən bir kimi qan qohumluğunun qarşısının alınmasını vurğulayır və müzakirələr aparırdı. Çünki qan qohumluğu sağlam uşaqların doğulması istiqamətində narahatlıq doğuran məsələlərdəndir (Məmmədov, 2008: 8).

Bu kimi problemlərin qarşısının alınması məqsədilə Ulu öndərin təşəbbüsü ilə Respublika Ailə-Sağlamlıq Mərkəzi açılmışdır. 1995-ci ildə mərkəzin açılışında böyük ailə dəyərlərinə malik olan, xüsusi ailə fəlsəfəsi olan dahi şəxsiyyət söyləyirdi*: "...Bizim xalqımızın, millətimizin həm fiziki, həm zehni cəhətdən sağlamlığı üçün yaranan problem qohumların bir-biri ilə ailə qurmasıdır. Təəssüf ki, bu, bizim millətimizin, xalqımızın qədimlərdən qalmış ənənəsidir. Biz ənənə və adətlərimizin çoxuna hörmət bəsləyirik, onları inkişaf etdiririk və inkişaf etdirməliyik. Amma o adətlər, o ənənələr insan üçün, cəmiyyət üçün zərərlidirsə, biz onlardan xilas olmalıyıq, imtina etməliyik. Bax, bu*

*adətənənələrdən biri də keçmişdən bizə miras qalmış, millətimizə xas olan adət – qohumların evlənməsi, ailə qurmasıdır..."* (10).

Bu çıxışında Ulu öndər qan qohumluğu evliliyinin fəsadlarını bir daha vurğulamışdır. Çünki, dövlət və cəmiyyət üçün sağlam vətəndaş yetişməlidir. Bu istiqamətdə görülən işlərdən biri kimi BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyaya (1994) qoşulmağı, eləcə də Azərbaycan Respublikasında "Uşaq hüquqları haqqında" (1998), "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" (1999), "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında" (1992) dövlət sənədlərini və s. qeyd etmək olar.

*"Uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaqdır"* (11) deyən Ümumilli lider bütün varlığı ilə uşaqları qorumağa və onların müdafiəsi istiqamətində tədbirlər görməyə çalışmışdır.

Ümummilli lider valideyn himayəsindən məhrum olan uşaqların gələcəklərini formalaşdırmaq və təmin etmək məqsədilə 1999-cu ildə Sos Uşaq kəndləri layihəsinin Azərbaycanda fəaliyyətini təmin etdi. Ulu öndər Heydər Əliyev "Bakı SOS Uşaq Kəndi"nin istifadəyə verilməsinə həsr olunmuş nitqində deyirdi (12):

*"Hər bir millət gərək özünün bu günü, gələcəyi üçün uşaqlara, gənclərə qayğı göstərsin. Beləliklə, millətin gələcək illərdə, əsrlərdə yaşamasını təmin etsin. Bu sırada Azərbaycanda kimsəsiz, valideynsiz uşaqlara göstərilən qayğı bizim ən ümdə vəzifələrimizdən biridir. Biz çalışırıq ki, bu qayğı günbəgün artsın. Allaha şükür olsun ki, buna nail ola bilirik. Həm Bakıda, həm də Azərbaycanın başqa məntəqələrində kimsəsiz uşaqlar üçün gözəl uşaq evləri var. Mən şəxsən o uşaq evlərinin bir neçəsində olmuşam. Özüm bilavasitə və yaxud xaricdən gələn yüksək qonaqlarla bərabər şəraitlə tanış olmuşam, uşaqların istedadı ilə tanış olmuşam, onların tərbiyəsi ilə tanış olmuşam. Sizə deyim ki, məni həyatımda bunun qədər sevindirən heç bir şey olmayıbdır"* (13).

Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilən bu layihə çərçivəsində valdeyn himayəsindən məhrum olan uşaqlar üçün ailələr yaradıldı və bu ailələrdə onların öz gələcəklərini formalaşdırmaları təmin olundu. Bu gündə Sos Uşaq kəndləri öz fəaliyyətlərini davam etdirir.

Bundan başqa Ümummilli lider Heydər Əliyevi hər il 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü və Uşaqların Beynəlxalq Radio günündə, Uşaq Yaradıcılıq sarayında və Televiziya günündə keçirilən tədbirlərdə görmək olardı. Belə görüşlərə o, hər zaman öz nəvələri ilə birgə qatılırdı (14).

Azərbaycan xalqının milli-mənəvi dəyərləri ilə yanaşı islam dəyərlərinə də xüsusi diqqət və qaygı göstərən Ulu öndər hər bir azərbaycanlı ailəsinin bu dəyərlər üzərində qurulmasını vacib hesab edirdi. İslam dininə və digər dinlərə olan münasibəti onun dini tolerantlığa, multikultural dəyərlərə sahib olması ilə yanaşı öz milli və dini kökünə bağlılığının ifadəsidir. O, ailədə böyüyən gənclərin islam mənəviyyatı ilə tərbiyə olunmasını valideynlərin və cəmiyyətin mühim vəzifəsi olaraq qeyd edirdi: *"Azərbaycan xalqının mənəvi dəyərlərinin əsasını islam dini, islam mənəviyyatı təşkil edir"* (Qaralov, 2015: 31).

Ulu öndər sosial ədalətliliyi də sağlam ailənin təməl prinsipi hesab edirdi. Beləki ədalətli cəmiyyətin kökündə sağlam ailə dayandığı üçün aləni təşkil edən hər bir fərdin bu yüksək dəyərə sahib olması çox önəmlidir. Sosial ədalətliliyi ailələrin həyata nikbin baxışının formalaşmasında mühüm amil hesab edirdi. Çünki, sosial ədalətlilik ailələri mənəviyyat və mədəniyyət daşıyıcına çevrilməsini təmin edən amildir.

Ümummilli lider Azərbaycan cəmiyyəti quruculuğu siyasətində siyasi sitemini belə ifadə edirdi: "Sağlam mənəviyyatlı şəxsiyyət-sağlam mənəviyyatlı ailə - sağlam mənəviyyatlı cəmiyyət -ədalətli, mükəmməl dövlət" (Qaralov, 2015: 16).

## Nəticə

Aparılan araşdırmalar onu deməyə əsas verir ki, Ümumilli lider Heydər Əliyevin ailə fəlsəfəsi, ailə dəyərləri azərbaycançılıq ideologiyasının əsasında qurulmuşdur ki, bu gün İlham Əliyev bir azərbaycanlı kimi xalqının rifahı, tərəqqisi istiqamətində uğurli siyasət aparır.



Ailə səmimiyyətini, mehribanlığını əks etdirən bu ailə tablosu ümummilli liderin ailə fəlsəfəsinin bariz nümunəsidir. Bu tabloda sevgi, bütövlük, *yekdillik, şərəflilik, inamlılıq, inanclılıq prinsiplərini görmək olar.*

*Bu "Ailə fəlsəfəsi" modeli qorunaraq nəsildən nəsilə ötürülür. Beləliklə də ailə milli-mənəvi dəyərlərin daşıyıcısına çevrilir.*



Bu gün biz prezident İlham Əliyevi təkcə Heydər Əliyevin "Ailə fəlsəfəsi"nin uğurlu davamçısı kimi deyil, həmdə davamlı və uzaqgörən siyasətinin davamçısı olaraq dəyərləndiririk.

*Ümumilli lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində ailə planlaşdırılması dövlətin nəzarəti altına alınıb. Yoxsul, çoxuşaqlı ailələr üçün dövlət yardımı sistemi yaradılıb ki, bu da ailələrin dayanıqlığı və sağlamlığına müəyyən töhfələr verir.*

## Ədəbiyyat


1. Əliyev Heydər. URL: preslib.az.
2. Əliyev Heydər. URL:https://azvision.az/news/260124/--heyder-eliyev-tarix-yaradan-sexsiyyet.html
3. Əliyev Heydər Əlirza oğlu. URL: president.az.
4. Ailə cəmiyyətin və dövlətin özəyi, milli-mənəvi dəyərlərin daşıyıcısıdır. URL:https://nuhcixan.az/news/cemiyyet/46617-aile-cemiyyetin-ve-dovletin-ozeyi-milli-menevi-deyerlerin-dasiyicisidir
5. Zərifə xanım Əliyevanın zəngin irsi neçə-neçə tədqiqat əsərinin mövzusuna çevrilib. URL: http://anl.az/down/meqale/iki_sahil/2020/aprel/719146.htm
6. Hüseynova, İ. (2004). Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Təhsil, 472 s.
7. İsmayılqızı, X. Heydər Əliyev şəxsiyyəti: Gücün, səbrin, iradənin, qətiyyətin vəhdəti. URL:https://ikisahil.az/post/156504-heyder-eliyev-shexsiyyeti-gucun-sebrin-iradenin-qetiyyetin-vehdeti
8. Azərbaycan Respublikasının ailə məcəlləsi. URL: https://www.e-qanun.az/framework/46946
9. Məmmədov, M. (2008). III Respublika: milli inkişaf modeli və strategiyası. Bakı: Nurlan, 200, 8 s.
10. Nəsillərə örnək olan ailə dəyərləri. URL: https://aqreqator.az/az/cemiyyet/994594
11. Uşaqlar bizim bu günümüz və gələcəyimizdir. URL: https://ikisahil.az/post/222959-ushaqlar-bizim-bu-gunumuz-ve-geleceyimizdir
12. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Bakı SOS Uşaq Kəndi"nin istifadəyə verilməsinə həsr olunmuş mərasimdə nitqi - 2 noyabr 2000-ci il. URL: https://lib.aliyev-heritage.org/az/5512549.html
13. Ömərov, V. Ulu Öndər Heydər Əliyev və ailə dəyərləri. URL: https://sia.az/az/news/social/821804.html
14. Qaralov, Z. (2015). Heydər Əliyev - milli ləyaqət ölçüsü. Bakı: Təhsil, 405, s.16-31.


Göndərilib: 10.05.2023 Qəbul edilib: 30.07.2023